

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 218 (21.119)

*15 noyabr 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhəri ərazisində 600 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbənin açılışında iştirak edib.

Prezident İlham Əliyevə yeni qəsəbə barədə məlumat verildi. Qəsəbə Gəncə şəhərinin Kəpəz rayonu ərazisində yerləşir. Bu qəsəbədə Kəlbəcər rayonundan və Xocalıdan ölkənin müxtəlif ərazilərində, o cümlədən Gəncə şəhərində və Hacıkənd qəsəbəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlər yaşayacaq.

Prezident İlham Əliyev 50 yerlik uşaq bağçasında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, bağçada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar yaradılıb.

Dövlətimizin başçısı Xocalı rayon Kosalar kənd tam orta məktəbində oldu. Məktəbdə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait var.

Prezident İlham Əliyev yeni qəsəbədəki mənzillərdə yaradılan şəraitlə də tanış oldu.

Dövlətimizin başçısı məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitdən razılığını bildirdi.



## Naxçıvan şəhərində 5 nömrəli yaşayış binası istifadəyə verilmişdir





Bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri müasir şəhərsalma prinsipləri əsasında qurulur. Həyata keçirilən quruculuq tədbirləri zamanı tarixiliklə müasirlik vəhdətdə götürülür, yeni inzibati binalar, sosial obyektlər tikilərək istifadəyə verilir. İctimai yaşayış binalarının yenidən qurulması, əhalinin kommunal-məişət şəraitinin yaxşılaşdırılması da aparılan tikinti-quruculuq işlərinin tərkib hissəsidir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, şəhərin Atatürk küçəsindəki 5 nömrəli yaşayış binası əsaslı şəkildə yenidən qurulmuşdur.

Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaşayış binasının açılışında iştirak etmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, muxtar respublikanın paytaxtında kompleks quruculuq işləri aparılır. Bu da Naxçıvan şəhərinə xüsusi gözəllik bəxş etməklə yanaşı, həm də sakinlərin rahat yaşayışına şərait yaradır. "Muxtariyyət ili"ndə Naxçıvan şəhərində yeni yaşayış kompleksi və 2 yaşayış binası tikilərək, 7 ictimai yaşayış binası isə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda şəhərin Heydər Əliyev prospektində, "İstiqlal", Atatürk, Kazım Talıblı, İdris Məmmədov küçələrində və Babək məhəlləsində ictimai yaşayış binalarının, Əziz Əliyev küçəsində yaşayış kompleksinin tikintisi, 4 binada isə yenidənqurma işləri davam etdirilir. İcra başçısı Naxçıvan şəhərinin inkişafına göstərilən qayğıya görə minnətdarlığını bildirmişdir.

Yeni binada mənzillə təmin olunanlar adından danışan Sevinc Abbasova demişdir ki, muxtar respublikada həyata keçirilən abadlıq-quruculuq işlərinin mərkəzində insan amili dayanır. Bu gün sakinlərin hər cür şəraiti olan mənzillərlə təmin edilməsi də bu sahədə görülən işlərin davamıdır. Şəhər sakini Sevinc Abbasova mənzillərlə təmin olunanlar adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri salamlamış, onları yeni mənzillərlə təmin olunmaları münasibətilə təbrik edərək demişdir: "Muxtar respublikada bütün sahələrdə quruculuq tədbirləri həyata keçirilir, müasir infrastruktur yaradılır. Bu işlər əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində də davam etdirilir. Hər il muxtar respublikada onlarla yeni ictimai yaşayış binası tikilərək və ya yenidən qurularaq sakinlərin istifadəsinə verilir".

Ali Məclisin Sədri demişdir: "Mənzil insan həyatında vacib məsələdir. Hər bir ailənin rahat yaşayışı həm də onun mənzil şəraitindən asılıdır. Ona görə də muxtar respublikada insanların rahat mənzillərlə təmin olunmasına xüsusi diqqət yetirilir, yeni yaşayış binalarının tikilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Noyabrın 11-də Şərur rayonunda sakinlərə 20 mənzilin təqdim olunması, bu gün isə Naxçıvan şəhərində 25 mənzilli binanın istifadəyə verilməsi, ailələrin mənzil şəraitinin yaxşılaşdırılması dövlətimizin insan amilinə göstərdiyi qayğının daha bir ifadəsidir. Bütün bunlara dövlət müstəqilliyinin, ölkəmizdəki mövcud inkişaf və sabitliyin, ən əsası isə ümummilli lider Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirilməsinin nəticəsində nail olunmuşdur".

Ali Məclisin Sədri Naxçıvan şəhərinin gözəl guşələrindən birinə çevrilən bu ərazidəki abadlığın qorunub saxlanılacağına əminliyini bildirmiş, mənzillərin orderlərini sakinlərə təqdim etmiş, onlara firavan həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 1920-ci ildə inşa edilmiş bina yenidən qurularkən 1 mərtəbə də əlavə olunmuş, mənzillərin hər birinin sahəsi 30 kvadratmetr artırılmışdır. Hazırda burada 25 mənzil vardır. Mənzillərdən 2-si ikiotaqlı, 21-i üçotaqlı, 2-si isə dördotaqlıdır. Binanın həyətində 16 tonluq su çəni qoyulmuş, mənzillərdə fərdi istilik sistemi yaradılmışdır.

Binanın 1-ci mərtəbəsində fəaliyyət göstərən 13 mağaza da yenidən qurulmuş, yeni gözəllik salonu istifadəyə verilmişdir. Burada milli geyimlərimizin və müxtəlif mərasim libaslarının hazırlanması və satışı da həyata keçiriləcəkdir.

Binanın həyətində 24 yerlik avtomobil dayanacağı yaradılmış və uşaq əyləncə qurğuları qoyulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər davam etdirilir



***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin I kurs tələbələrinin iştirakı ilə "Muxtariyyət ili"nə həsr olunmuş açıq dərs keçilib.***

Açıq dərsdə universitetin Hüquq fənləri kafedrasının müəllimi Əli Qədimov "Bələdiyyə seçkilərinin xüsusiyyətləri, seçki hüququ və seçki sistemləri" mövzusunda mühazirə oxuyub. Bildirilib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə olduğu kimi, hüquqi sahədə də islahatlar aparılıb, yerli özünüidarəetmə orqanları olan bələdiyyələr yaradılıb. Bələdiyyələr Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilən yerli nümayəndələrdən ibarət kollegial orqanlardır. Onlar müəyyən ərazi vahidinin hüdudları daxilində yerli özünüidarəni həyata keçirirlər. Bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq təyin edilir. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə və Seçki Məcəlləsinin 224-cü maddəsinə müvafiq olaraq, siyasi partiyaların, siyasi partiyalar bloklarının bələdiyyə üzvlüyünə namizədləri seçkiqabağı təşviqat aparmaq hüququna malikdirlər. Namizədlər, bələdiyyə seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları səsvermə gününə 28 gün qalmış təşviqata başlayır, səsvermənin başlamasına 24 saat qalmış isə təşviqatı dayandırır. Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır.

Sonra mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, həmin gün Naxçıvan Dövlət Texniki Kollecinin I kurs tələbələri üçün "Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində sosial-iqtisadi inkişafı" mövzusunda açıq dərs keçilib.

Açıq dərsdə kollecin müəllimi Allahverdi Cabbarov bildirib ki, son 19 ildə muxtar diyarımızda davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, bu sahədə mühüm dövlət proqramları qəbul edilib.

Vurğulanıb ki, təkcə ötən 10 il ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi göstəricilərinin yaxşılaşmasına səbəb olub, Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 9,8 dəfə artıb.

Bildirilib ki, əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilib. Aparılan təhlillər göstərir ki, muxtar respublikada sosial və iqtisadi sahələrin kompleks inkişafı uzunmüddətli dövr üçün iqtisadi artımın və dayanıqlılığın təmin edilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına möhkəm zəmin yaradır.

**Xəbərlər şöbəsi**

# Naxçıvandan yüksəldilən üçrəngli Azərbaycan Bayrağı

*17 noyabr 1990-cı ildə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dövlətçiliyimizin, müstəqilliyimizin bərpası üçün çox mühüm qərarlar qəbul edilmişdir*



***17** noyabr Azərbaycan xalqının milli özünüdərkin, azadlıq uğrunda mübarizənin başlanğıc günü kimi qeyd olunur. 24 il bundan əvvəl məhz bu gün ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına qədim Naxçıvanda başlandı. Muxtar respublikanın taleyində həlledici rol oynayan, təhlükəsizliyini, gələcək inkişaf perspektivlərini müəyyənləşdirən qərarlar məhz həmin gün qəbul edildi. Sonralar bu qərarlar Azərbaycanın müstəqillik yoluna işıq tutdu.***

17 noyabr 1990-cı ildə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 12-ci çağırış birinci sessiyasında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilmişdir. SSRİ kimi imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanda qəbul edilən bu qərarlar böyük cəsarət tələb edirdi. Bununla ümummilli liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addımı atdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin dövrü belə xarakterizə edir: ***"Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu".***

Qeyd etdiyimiz kimi, ulu öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada böyük dövlət xadimi müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmasını təklif etdi. Sessiyada ümummilli liderimizin təklifi belə idi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının Dövlət rəmzləri haqqında qərar qəbul etsin".

Müzakirələrdən sonra görkəmli dövlət xadimi Heydər Əliyevin bu təklifi səsə qoyulmuş və böyük səs çoxluğu ilə aşağıdakı qərar qəbul olunmuşdur:

"*1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".*

Qərar qəbul olunandan sonra yeni qəbul olunmuş dövlət bayrağı zala gətirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qaldırılmışdır.

Həmin dövrdə Naxçıvanda qəbul edilən qərarlar nəinki Azərbaycanda, bütün dünyada böyük əks-səda doğurmuşdu. Nəhəng imperiyanın tərkibində olan muxtar respublikada atılan cəsarətli addımlar ölkəmizdə və beynəlxalq aləmdə böyük rəğbətlə, alqışlarla qarşılanmışdı. Çünki bu tarixə kimi kimliyindən asılı olmayaraq, heç kəs belə bir qərar layihəsini nə hazırlamışdı, nə də qəbul edilməsinə cəhd göstərmişdi. Həqiqət budur ki, 70 il yaşamış böyük bir imperiyanın əsasları bu qərarın qəbulu ilə sarsıldı.

Tarixdən məlumdur ki, Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyun ayının 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılmışdı. Qəbul olunmuş "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında" qərardan sonra isə Naxçıvanın adından "Sovet", "Sosialist" sözləri əbədi olaraq çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində bu həqiqətləri bir daha ifadə edərək demişdir: ***"O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "Sovet Sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur".***

Azərbaycanın dövlət başçısının da qeyd etdiyi kimi, o illər muxtar respublika əhalisi, həqiqətən də, tarixin ağır sınaqları qarşısında qalmış, lakin ulu öndərin ətrafında sıx birləşərək bu sınaqlardan mətanətlə çıxmışdır. Belə ki, indiki Ermənistan ərazisindən keçən yeganə avtomobil yolu 1988-ci ildən erməni millətçiləri tərəfindən tamamilə bağlanmışdı. 1991-ci il dekabrın 8-dən muxtar respublikaya təbii qazın verilməsinin dayandırılması, 24 aprel 1992-ci il tarixdən dəmir yolunun bağlanması, 13 iyul 1992-ci il tarixdən isə elektrik enerjisinin kəsilməsi muxtar respublikada mövcud olan böhranı daha da kəskinləşdirmişdi. Azərbaycanın əsas ərazisindən ayrılan, Bakı ilə kommunikasiya xətlərindən birdəfəlik məhrum olan Naxçıvan tam blokada vəziyyətinə düşmüşdü.

Belə bir tarixi şəraitdə ümummilli liderimizin doğulduğu Naxçıvan torpağına tarixi qayıdışı bütün Naxçıvan əhalisində gələcəyə inam hissi oyatdı. 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda mövcud ictimai-siyasi böhranı aradan qaldırmaq istiqamətində yorulmaz fəaliyyətə başladı. Muxtar respublikanın siyasi və hüquqi əsaslarının gücləndirilməsi, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində ulu öndərimizin rəhbərliyi ilə bir sıra layihələr hazırlanıb həyata keçirildi. Heydər Əliyev dühası və dövlətçilik təcrübəsi sayəsində heç kəsin görə bilməyəcəyi işlər muxtar respublikada qısa müddətdə həyata keçirildi. Əvvəlcə hadisələrin sürətlə fəlakətə doğru inkişafının qarşısı alındı.

Muxtar respublikanın ağır hərbi blokada şəraitindən çıxarılması istiqamətində lazımi addımlar atıldı. Naxçıvanın sərhədlərinin müdafiəsi istiqamətində mühüm işlər görüldü. Milli Ordu hissələrinin, ilk milli sərhəd dəstəsinin yaradılmasına Naxçıvandan başlandı. Azərbaycanın digər bölgələrindən fərqli olaraq, sovet qoşun hissələrinin və sərhəd dəstələrinin hərbi qulluqçuları Naxçıvandan çıxarıldı, silah və sursatları isə alınıb Milli Ordu hissələrinə verildi. Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısı alındı. İqtisadi islahatlara başlanıldı, sahibkarlığın inkişafına şərait yaradıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanı düşdüyü ağır blokada şəraitindən xilas etmək, zəruri ərzaq və yanacaq tələbatını ödəmək məqsədilə apardığı uğurlu xarici və daxili siyasət öz bəhrəsini verdi.

Ümummilli liderimizin Naxçıvanda müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının ona olan sevgisini, ümidlərini daha da artırırdı. Xalqın məhəbbət və dəstəyinə güvənən ümummilli liderimiz isə bütün bunları özünəməxsus enerji, işgüzarlıq, qətiyyət və çevikliklə həyata keçirirdi.

1990-cı ilin kəşməkəşli iyul günlərində doğma Vətəninə qayıdaraq xalqa nicat və qurtuluş yolunu göstərən Heydər Əliyev elə Naxçıvanda Azərbaycan xalqının müstəqilliyi naminə yorulmadan çalışırdı. Həmin illərdə ulu öndər xalqı azadlıq, müstəqillik uğrunda mübariz olmağa çağırdı. Sıravi deputat kimi xalqımızın böyük oğlu Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmişdi. Ulu öndər Heydər Əliyevin siyasi fəallığı nəticəsində qəbul olunan bu qərarda ilk dəfə olaraq Qanlı Yanvar hadisələrinə siyasi qiymət verildi.

Belə bir ağır şəraitdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ulu öndərimiz Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə hər zaman düzgün yol göstərirdi. Azərbaycan Ali Sovetində 1991-ci il martın 7-də SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunun keçirilməsi haqqında məsələ müzakirə edilərkən xalq deputatı Heydər Əliyev SSRİ-nin saxlanılmasına münasibət bildirilməsi üçün keçiriləcək ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxaraq deyirdi: ***"...Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir".***

Bunun ardınca ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası "SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə" qərar qəbul etdi. Ümummilli liderimizin rəhbərliyi ilə 26 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı barədə" qərar qəbul olundu.

Beləliklə, ümummilli liderin rəhbərliyi ilə Naxçıvanda başlanan demokratik proseslər, milli dirçəliş yolunda atılan ilk addımlar tezliklə Azərbaycanın müstəqil dövlətə çevrilməsi yolunda əvəzsiz rol oynadı. Bu illər müasir dövlətçilik tariximizin ən parlaq səhifələrini təşkil edir. Naxçıvan tarixin bütün dövrlərində olduğu kimi, XX əsrdə də Azərbaycanda gedən bütün ictimai-siyasi proseslərdə özünəməxsus rol oynadı. Naxçıvanı siyasi mərkəzə çevirən, onu qoruyan ulu öndərimizin qətiyyəti, iradəsi, siyasi uzaqgörənliyi Azərbaycanın müstəqilliyini şərtləndirdi. Daha sonra xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev ölkəmizi parçalanmaqdan, yox olmaqdan xilas edərək müstəqil Azərbaycan Respublikası kimi möhtəşəm bir abidə ucaltdı.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılan üçrəngli Azərbaycan bayrağı müstəqil Azərbaycanın simvolu kimi bu gün dünyanın müxtəlif beynəlxalq təşkilatlarının qarşısında dalğalanır. Həmin tarixi sessiyada qəbul olunan qərarlar Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı idi. 17 noyabrı naxçıvanlılar ikiqat bayram sevinci ilə qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin müdrik qərarı ilə qəbul olunan üçrəngli bayraq bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinin ən hündür yerində dalğalanır. Bu il avqustun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Sərəncam imzaladı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda belə bir müqəddəs ünvanın yaradılması həm də ona görə əhəmiyyətlidir ki, yetmiş ildən sonra üçrəngli bayrağımız məhz ilk dəfə bu torpaqda qaldırılıb. Müstəqil Azərbaycanın yoluna işıq salan milli qərarlar məhz bu bayrağın altında öz təsdiqini tapıb. Məsələnin digər əhəmiyyəti isə ondan ibarətdir ki, Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Sərəncam Naxçıvanın muxtariyyət tarixinin 90-cı ildönümündə imzalandı.

***Naxçıvan şəhərinin qərb tərəfdən giriş hissəsində yüksək bir ərazidə yerləşən Dövlət Bayrağı Meydanında üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bayrağımız daim ucalarda olacaq, ölkəmizin müstəqilliyinin və suverenliyinin təcəssümü, xalqımızın əyilməz vüqarının ifadəsi kimi yüksələcəkdir.***

**"Şərq qapısı"**

*Naxçıvan Muxtar Respublikasının hərbi təhlükəsizlik sistemi çox yüksək səviyyədə təmin olunub. Bu gün muxtar respublikada müasir dünya orduları səviyyəsində yaradılan Əlahiddə Ümumqoşun Ordusu əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malikdir və ordumuz hakim yüksəkliklərdə etibarlı müdafiə sistemi qurub.*

# Hakim yüksəkliklərdə yaradılan etibarlı müdafiə sistemi hərbi-strateji üstünlüyümüzü təmin edib



Əvvəlcə hakim, hərbi dillə desək, strateji yüksəkliklərin əhəmiyyəti barədə onu qeyd etmək yerinə düşərdi ki, dünyanın istənilən məkanında yüksəkliklərə nəzarət edən ordu düşməndən üstün hesab edilir. Çünki onun ətrafdakı ərazilərə maneəsiz nəzarət imkanı olmaqla bərabər, həm də istənilən hədəfi dəqiqliklə yox edə bilər. Təsadüfi deyil ki, bu gün bütün hərbi ekspertlər qədim diyarımızın strateji yüksəkliklərində qərarlaşan Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusunun postlarını erməni işğalçılarının başı üstündə asılan "Domokl qılıncı"na bənzədirlər. Yəni bu gün Naxçıvan ordusu Ali Baş Komandanın bütün əmrlərini hər an layiqincə yerinə yetirməyə hazırdır.

Digər tərəfdən isə hakim yüksəkliklərdə qurulan müdafiə sistemi nəticəsində düşmənə ciddi müqavimət göstərmək və onun itki verərək geri çəkilməsinə nail olmaq daha asandır. Məhz buna görə tarix boyu baş verən döyüşlərdə sərkərdələr öncə strateji yüksəkliklərin tutulmasını, mövqelərin möhkəmləndirilməsini əsas amil kimi ön plana çıxarmışlar. Teymurləng kimi nəhəng sərkərdənin qüdrətli ordusuna qarşı 14 il mərdliklə müdafiə olunan Əlincəqalanın yüksəklikdə yerləşməsi də bu arqumentləri təsdiqləyir.

Bu mənada bu gün Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyindən söz açarkən əvvəlcə muxtar respublikanın təmas xəttindəki hakim yüksəkliyinə diqqət yönəldilir. Həmin yüksəkliklərdə etibarlı müdafiə sisteminin qurulması, burada Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlərin xidmət şəraitinin daim diqqətdə saxlanılması, maddi-texniki təminatın gündən-günə daha da yaxşılaşdırılması hər birimizdə qürur hissləri ilə bərabər, əminlik yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dəfələrlə muxtar respublikanın hakim yüksəkliklərində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə, buradakı vəziyyətlə maraqlanıb. Ötən ay Ali Məclisin Sədri növbəti dəfə muxtar respublikanın, hətta deyərdik ki, yerləşdiyimiz regionun ən əhəmiyyətli yüksəkliyində – Soyuq bölgəsindəki təmas xəttində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb.

Ali Məclisin Sədri deyib ki, hər bir ölkənin mövcudluğu onun sərhədlərindən başlanır. Döyüş bölgəsindəki şəxsi heyət qarşısında yalnız bir xidməti vəzifə durur: bu da Vətən torpaqlarının və sərhədlərimizin etibarlı qorunmasıdır. Lakin çətin dağlıq şəraitdə hərbi xidmətdə olan hər bir əsgər və zabit unutmamalıdır ki, o yalnız sərhədlərimizin deyil, həm də ölkəmizin təhlükəsizliyinin etibarlı təminatçısıdır. Soyuq bölgəsində xidmət edən əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması da yaradılan şəraitin və xidmətin düzgün təşkilinin nəticəsidir. Qarşılıqlı hörmət və dostluq münasibətlərinin yaradılması üçün "hamı bir nəfər, bir nəfər hamı üçün" prinsipi şəxsi heyətin xidməti fəaliyyətinin əsasını təşkil etməlidir.

Vətən torpaqlarının qorunmasında əsgərlərə mərdlik və mübarizlik arzulayan Ali Məclisin Sədri muxtar respublikanın çətin dağlıq şəraitində yerləşən hərbi hissələrin bundan sonra da diqqət mərkəzində olacağını bildirib.

Bir çoxumuz bilirik ki, Soyuq bölgəsində xidmət keçmək əzmkarlıq, cəsarət, Vətənə, xalqa, dövlətə, dövlətçiliyə bağlılıq tələb edir. Çünki bu bölgədə hava şəraiti, xüsusən payız, qış, yaz aylarında adı kimi şaxtalı və soyuq keçir. Burada, sözün həqiqi mənasında, qış çovğununun, tufanının şahidi olmaq mümkündür. Biz səsiylə yeri-göyü lərzəyə salan, gecənin zülmət qaranlığında bir anda hər tərəfi aydınladan ildırımları, şimşəkləri səmada görürük. Başı buludlara dəyən, dəniz səviyyəsindən 3904 metr yüksəklikdəki zirvədə xidmət edən Vətən övladları bu yüksəklikdə çaxan ildırımlar kimi düşmənin gözünə batır, ilin istənilən fəslində Vətənə ləyaqətlə xidmət edir, düşmənə gözdağı kimi hərbi postlarımızda boy göstərir, düşməni nəzarətdə saxlayırlar.

Bu gün cəmiyyətimiz əmindir ki, Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlətimiz əsgər və zabitlərimizin bütün problemləri ilə maraqlanır, onlardan qayğısını əsirgəmir. Muxtar respublikada bu məsələnin xüsusilə diqqətdə saxlanıldığını ölkəmizdə artıq hər kəs çox yaxşı bilir. Ali Məclis Sədrinin dəfələrlə təmas xəttində olması da bunun bariz nümunəsidir.

Bu dəfə isə bizi sevindirən digər bir məqam Soyuq bölgəsində yeni xidməti və yaşayış binalarının inşasının nəzərdə tutulduğunun bildirilməsi idi. Məsələ burasındadır ki, Soyuq bölgəsində yenidən qurulan yataqxana, yeməkxana, anbarlar və digər xidməti binalarda təhlükəsiz və rahat şəraitdə xidmətin təşkili təmin olunub. Buraya içməli su xətti çəkilib, istilik sistemi quraşdırılıb. Ancaq bu gün qüdrətli dövlətimiz xidmət şəraitinin daha da yaxşılaşdırılması üçün yeni-yeni addımlar atır. Yəni burada aparılan yeni tikinti işlərindən sonra xidmətin daha səmərəli təşkili təmin olunacaq, şəxsi heyətin məişət şəraiti xeyli yaxşılaşdırılacaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi, bu gün muxtar respublikanın strateji əhəmiyyətli zirvə və yüksəkliklərində etibarlı müdafiə sistemi formalaşdırılıb. Bu yüksəkliklərdə peşəkar və yüksək döyüş hazırlığına malik olan əsgər və zabitlərimiz xidmət edirlər. Şəxsi heyət əməliyyat-taktiki səviyyədə yüksək döyüş hazırlığına malikdir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılır. Postlar arasında səmtləşmənin aparılması, bölmələr arasında rabitə əlaqəsinin qurulması və müşahidənin düzgün təşkili etibarlı müdafiə sistemi yaradıb. Dayaq məntəqələri və postlar müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub. Döyüş növbətçiliyini aparan şəxsi heyətin istifadəsində olan cihazlar isə ən çətin hava şəraitində belə, qarşı tərəfin mövqelərinin müşahidə edilməsinə imkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il dekabrın 18-də imzaladığı Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması qədim diyarın təhlükəsizliyinin daha etibarlı təmini üçün əsaslı zəmin yaradıb. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasını dövlət siyasəti kimi dəyərləndirən və bu ordunun daha da gücləndirilməsi zərurətindən danışan Prezident İlham Əliyev deyib: ***"Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır… Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu, reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük potensial yaradacağıq".***

Bu gün Naxçıvan Muxtar Respublikasında hər sahədə olduğu kimi, müdafiə sisteminin təkmilləşdirilməsi, gücləndirilməsi sahəsində də ulu öndərimizin arzuları reallaşdırılıb, bu gözəl məkanda ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqları yerinə yetirilib. Hərbi hissələrdə xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib, həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji vəziyyətinin yüksəlməsinə səbəb olub.

*Bu gün bir daha əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikasının Əlahiddə Ümumqoşun Ordusunun hakim yüksəkliyində yerləşən hissə və bölmələri sərhədlərimizi etibarlı müdafiə edir və düşmənə layiqli cavab verməyə tam hazırdır. Dövlət başçısının dediyi kimi:* ***"Naxçıvanın hərbi potensialı çox yüksək səviyyədədir. Naxçıvanın müdafiəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə və eyni zamanda istənilən hərbi vəzifəni icra etməyə qadirdir".***

**Rauf ƏLİYEV**

# Möhtəşəm yüksəliş haqqında kitab



***Ulu öndər Heydər Əliyevin ideyalarının ardıcıl və mükəmməl səviyyədə həyata keçirilməsi sayəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sosial, iqtisadi və mədəni həyatın bütün sahələrində misilsiz uğurlar qazanmış, blokada şəraitinin yaratdığı çoxsaylı çətinlikləri mətanətlə dəf edərək əsaslı yüksəlişə nail olmuşdur. Ötən illər ərzində doğma diyarımızın hərtərəfli və sürətlə inkişaf edərək əsl intibaha qovuşması məhz ulu öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının, mükəmməl siyasi kursunun yüksək səviyyədə həyata keçirilməsinin nəticəsidir.***

Muxtariyyətinin 90 illik yubileyi ölkə Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2014-cü il tarixli Sərəncamı əsasında geniş şəkildə qeyd olunan Naxçıvanda son dövrdə keçilmiş şərəfli yolun təhlil edilib öyrənilməsi inkişafın miqyas və əhatəsinin geniş üfüqlərini bir daha göstərir. Bu baxımdan Azərbaycan Respublikasının Əməkdar müəllimi, AMEA-nın müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, professor Zəhmət Şahverdiyevin və həmin ali məktəbin dosenti, tarix üzrə fəlsəfə doktoru İsmayıl Zeynalovun "Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər)" adlı kitabı özünün məzmun və mündəricəsi, elmi səviyyəsi ilə diqqəti çəkir. Əcəmi Nəşriyyat Poliqrafiya Birliyində çap olunmuş 248 səhifəlik kitabın elmi redaktoru iqtisad üzrə fəlsəfə doktoru, dosent Müslüm Cabbarzadədir.

Kitabla yaxından tanışlıq göstərir ki, müəlliflər bəhs olunan mərhələni, ona aid elmi və statistik materialları, faktları diqqətlə öyrənmiş, Naxçıvan Muxtar Respublikasının 2001-2012-ci illərdəki hərtərəfli inkişafının elmi təhlilini vermişlər.

Yeddi fəsildən ibarət kitabın hər bir bölməsində Naxçıvanın inkişafının müxtəlif sahələri elmi şəkildə səciyyələndirilir. "Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın əsas xüsusiyyətləri" adlanan ilk fəsildə əvvəlcə Naxçıvanın muxtariyyət tarixinə qısa nəzər salınmış, müvafiq dəyərləndirmələr aparılmışdır. Azərbaycanın müstəqilliyi dövründə Naxçıvanın sosial-iqtisadi inkişafının əsas mahiyyətinə nəzər yetirən müəlliflər ötən illər ərzində hərtərəfli tərəqqinin xarakterik məziyyət və göstəricilərini təhlil edib ümumiləşdirmişlər.

İkinci fəsil Naxçıvan Muxtar Respublikasında sənayenin sürətli inkişafı məsələlərinə həsr olunmuşdur. Haqlı olaraq vurğulandığı kimi, 2000-ci ilədək qazanılmış inkişaf səviyyəsi növbəti daha böyük yüksəliş üçün uğurlu zəmin olmuş, sonrakı illərdə muxtar respublikanın müxtəlif bölgələrində çoxsaylı sənaye müəssisələri tikilib istifadəyə verilmiş, yeni istehsal sahələri, minlərlə iş yerləri yaradılmış, özəl sektorun inkişafı üçün lazımi şərait təmin edilmişdir. Bircə faktı xatırladaq ki, təkcə 2012-ci ildə əvvəlki illə müqayisədə sənaye məhsulunun istehsalı 15 faiz çoxalmışdır ki, bunun da 93 faizə qədəri özəl bölmənin payına düşür.

Kitabın üçüncü fəslində muxtar respublikada kənd təsərrüfatının son dövrdəki inkişafından xəbər verən çoxsaylı göstəricilər təhlilə cəlb olunmuşdur. Regionda maldarlıq və heyvandarlıqla yanaşı, meyvəçilik, tərəvəzçilik, arıçılıq və digər sahələrin inkişafı üçün həyata keçirilmiş sistemli tədbirlər bu fəsildə öz ifadəsini tapmışdır. Ayrı-ayrı təsərrüfat sahələrinin (kartofçuluq və sair) daha intensiv inkişafı üçün qəbul edilmiş dövlət proqramlarının uğurla icrası muxtar respublikada aqrar sektorun əsaslı yüksəlişinə rəvac vermişdir. 1995-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı müqayisəli qiymətlərlə 38572,2 min manat olduğu halda, bu rəqəm 2011-ci ildə 296117 min manat təşkil etmişdir.

Naxçıvanda sənaye və kənd təsərrüfatı ilə yanaşı, əsaslı tikinti, abadlaşdırma, meliorasiya sahəsində də ciddi uğurlar qazanılmışdır. Nəşrin dördüncü fəslində diqqət mərkəzinə çəkilən faktlar, təhlilə cəlb olunan göstəricilər bunu bir daha əyani şəkildə nümayiş etdirir. Vurğulanır ki, hazırda Naxçıvan Muxtar Respublikasının paytaxtından başlayaraq ucqar dağ kəndinə qədər hər bir yaşayış məntəqəsi əsaslı şəkildə yenidən qurulmuş, kənd mərkəzləri istifadəyə verilmiş, ən müasir infrastruktur yaradılmışdır. İnşa olunan yaşayış evləri, körpülər, çəkilən su kəmərləri, tikilərək, yaxud əsaslı təmir olunaraq istifadəyə verilən müxtəliftəyinatlı çoxsaylı binalar davamlı quruculuq tədbirlərinin tərkib hissəsi kimi böyük əhəmiyyətə malikdir.

Muxtar respublikada elm, təhsil, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi və idmanın inkişafı sahəsində də ciddi işlər görülmüşdür. Beşinci fəsillə tanışlıq bu sahələrdə də misilsiz tədbirlərin həyata keçirildiyini bir daha göz önünə gətirir. Ötən dövr ərzində muxtar respublikada həmin sahələrin də inkişafına mühüm diqqət yetirilmiş, aid müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir standartlar səviyyəsində yenidən qurulması istiqamətində konseptual proqramlar müvəffəqiyyətlə reallaşdırılmışdır. Nəticədə, muxtar respublikada fəaliyyət göstərən elm, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının həm şəbəkəsi genişlənmiş, həm də onların səmərəli, məqsədyönlü fəaliyyəti üçün ən optimal şərait formalaşdırılmışdır. Bütün bunlar kitabda çoxsaylı faktlar, rəqəmlər və təhlillər əsasında oxuculara çatdırılmışdır.

Altıncı fəsildə nəqliyyat, rabitə, kommunal təsərrüfat və energetika məsələləri diqqət mərkəzinə çəkilmiş, bu sahələrdəki dinamik inkişafı göstərən əsas faktlar nəzərdən keçirilmişdir. Yol-nəqliyyat infrastrukturu əsaslı şəkildə yenidən qurulmuş, çəkilən yollar, tikilən körpülər bölgənin bütün ərazisində bütöv bir şəbəkəyə çevrilmişdir. Ən müasir poçt, telefon xidməti təşkil edilmiş, bütün yaşayış məntəqələri internetlə təmin olunmuşdur. Əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunması uğurla başa çatdırılmışdır. Bir vaxtlar yaşayış məntəqələri sutka ərzində bir-iki saat elektrik enerjisi ala bilən Naxçıvan hazırda elektrik enerjisi ixrac edən regiona çevrilmişdir. Həyata keçirilən düşünülmüş, müdrik siyasət muxtar respublikada əhalinin maddi rifah halını da əsaslı şəkildə yaxşılaşdırmışdır. Yaradılan minlərlə iş yerləri, ildən-ilə artan əməkhaqları və sair barədə yeddinci fəsildə sadalanan faktlar, geniş yer tutan təhlillər bunu bir daha yəqinləşdirir.

Kitabda aparılan təhlillərin müqayisəli xarakter daşıması, həm sahələr, həm də illər üzrə olması onun sistematikliyini, konseptuallığını təmin etmişdir. Oxuculara təqdim olunan müvafiq cədvəllər 2001-2012-ci illərdə muxtar respublikada möhtəşəm inkişafın dinamikasını konkret şəkildə nəzərə çatdırmaq baxımından çox faydalıdır. Müxtəlif quruculuq ünvanlarının fotoşəkilləri elmi təhlillərdən alınan təəssüratı tamamlamağa xidmət göstərir.

Şübhəsiz ki, müstəqillik qazandıqdan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolunun təhlil və tədqiqi tədris prosesi üçün də faydalı və gərəklidir. Bunu nəzərə alan kitab müəllifləri əsəri Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qrifi əsasında dərs vəsaiti kimi nəşr etdirmişlər. Haqqında bəhs etdiyimiz kitab, eləcə də müəlliflərin əvvəlki kitabı, həmçinin bir sıra digər tarixçi alimlərin müvafiq tədqiqatları Naxçıvanın son illərdəki möhtəşəm inkişafının öyrənilməsi üçün dəyərli baza olmaqla yanaşı, həm də bütövlükdə Azərbaycanın müstəqillik dövrü tarixinin tədqiqi və tədrisi üçün mühüm əhəmiyyət daşıyır.

***Hüseyn HƏŞİMLİ***
***Əməkdar elm xadimi***

## Elmi-praktik konfrans keçirilib



*Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə “Kurikulum və şəxsiyyətyönümlü təlim” mövzusunda elmi-praktik konfrans keçirilib.*

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən konfransı giriş sözü ilə məktəbin direktoru Namiq Məmmədov açaraq tədbirin məqsəd və mahiyyətindən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli “Şəxsiyyətyönümlü kurikulumun mahiyyəti” mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır. Onlardan birincisi fənyönümlü, ikincisi isə şəxsiyyətyönümlü kurikulum adlanır. Şəxsiyyətyönümlü kurikulumlar, bilavasitə, həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlərinin, əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir, tələb olunan bacarıq və vərdişlərin formalaşdırılmasına imkan yaradan minimum biliklərin həcmi müəyyənləşdirilir. Həmin biliklər minimum təlim məqsədlərinə çatmaq üçün vasitə kimi nəzərdə tutulur. Şəxsiyyətyönümlü kurikulumlar inteqrativ məzmunu ilə seçilir. Buradakı fənlərin adlandırılmasında, məzmunun müəyyənləşdirilməsində şəxsiyyətin formalaşması üçün əhəmiyyət kəsb edən və bilavasitə, insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür.

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov “Şəxsiyyətin formalaşmasına təsir edən amillər” adlı məruzəsində bildirib ki, insan şəxsiyyəti müxtəlif amillərin nəticəsində formalaşır. Şəxsiyyətin formalaşmasına təsir edən amillər çoxcəhətlidir: onlar daxili və xarici, təbii və ictimai, subyektiv və obyektiv, planlı və kortəbii olur.

Vurğulanıb ki, fərd olaraq dünyaya gələn hər bir insan 3 əsas amilin təsiri ilə şəxsiyyətə çevrilir. Pedaqoq və psixoloqlar həmin amilləri bu cür təsnif edirlər: mühit, tərbiyə və irsiyyət. Alimin sözlərinə görə, şəxsiyyətin formalaşması fərdin yaşadığı mühitin sağlamlığından, insani keyfiyyətləri, əxlaqi dəyərləri təlqin edən tərbiyədən və nəhayət, müəyyən təbii imkanları ilə hər bir fərdi səciyyələndirən qabiliyyət və bacarıqlar məcmusu olan irsi amildən əsaslı surətdə asılıdır. Bu amillər içərisində tərbiyənin xüsusi önəm daşıdığını deyən Kamal Camalov əlavə edib ki, digər amillər məhz düzgün və məqsədli tərbiyə zamanı şəxsiyyətin formalaşmasına öz müsbət təsirini göstərə bilir.

Sonra məruzələr ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Beynəlxalq tələbə-gənclər həftəsinə həsr olunmuş sərgi

*Naxçıvan Dövlət Universitetində 10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsi münasibətilə Memarlıq və mühəndislik fakültəsi tələbələrinin əl işlərindən ibarət elektronika və memarlıq sərgiləri təşkil olunub.*

Sərginin açılışında universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək universitetdə nanotexnologiyaların tətbiqi, tələbələrdə elmi-texniki təfəkkürü inkişaf etdirmək və onlara praktik vərdişlər aşılamaq baxımından belə sərgilərin əhəmiyyətindən danışıb, tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra sərgilərlə tanışlıq olub. Fakültə dekanı, texnika üzrə fəlsəfə doktoru, dosent Cavanşir Zeynalov elektronika sərgisində nümayiş olunan alqoritmlərin prinsipial sxemləri, istixanalar və əkin sahələri üçün nəzərdə tutulan kompüter suvarma sistemi, hidroprosessor üzərində qurulmuş multivibrator, Günəş batareyası ilə işləyən elektron işıqfor, 32 simvollu yaddaş qurğusu, morze aparatı, enerjinin avtomatik idarə edilməsi qurğusu, səs generatoru və digər əl işləri barədə məlumat verib.

Memarlıq sərgisində Memarlıq kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev və memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova qeyd ediblər ki, tələbələrin yeni memarlıq layihələrindən gələcəkdə müasir memarlıq nümunələrinin tikintisində, şəhərsalmada istifadə oluna bilər.

Burada sərgilənən 9 mərtəbəli mehmanxana və yaşayış evinin, spiralvari hökumət binasının, “Büllur saray”ın maketləri, yeni kompozisiyalar maraq doğurub.

**Mehriban SULTAN**

## İntellektual oyunun qalibi müəyyənləşib

***10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında dünən intellektual oyun keçirilib.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının zəngin milli mədəniyyətinin və tarixinin təbliğindən, gənclərin intellektual səviyyələrini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaqdan, onlar arasında bilik və elmin nüfuzunu artırmaqdan, eləcə də asudə vaxtın səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olub.

İntellektual oyunda ali və orta ixtisas təhsili müəssisələrinin 16 komandası mübarizə aparıb. Reqlamentə əsasən, 4 mərhələ, yarımfinal və final mərhələlərindən ibarət olan oyunda finala “Şahdağ”, “Savalan”, “Loğman” və “Şəfa” komandaları vəsiqə qazanıblar. Gərgin keçən mübarizə nəticəsində Naxçıvan Dövlət Universitetinin “Şahdağ” komandası qalib adını qazanıb. NDU-nun daha bir komandası “Savalan” ikinci, Naxçıvan Tibb Kollecinin “Loğman” komandası isə üçüncü olub.

## MMA qaydasız döyüş növü üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub



***Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində MMA qaydasız döyüş növü üzrə şəhər birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi birincilikdə 60-dan çox idmançı mübarizə aparıb.***

Tədbirin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov yarış barədə məlumat verib.

İki gün davam edən Naxçıvan şəhər birinciliyinin əsas məqsədi MMA idman növünü gənclər arasında təbliğ etmək və federasiya tərkibində fəaliyyət göstərən klubların işini təkmilləşdirmək olub. Yarışın ilk günündə idmançılar finala vəsiqə qazanmaq üçün mübarizə aparıblar. Birinciliyin reqlamentinə əsasən, idmançılar 8 çəki dərəcəsində rinqə çıxıblar. 55, 60, 65, 68, 72, 75, 85 və 96 kiloqram çəkilərdə finala vəsiqə qazanan idmançıların döyüşü isə bir gün sonra baş tutub. Final qarşılaşmalarında da tamaşaçılar mükəmməl döyüşlərə şahidlik ediblər. Belə ki, 55 kiloqram çəki dərəcəsində daha öncə muxtar respublika çempionu olmuş Polad Cəlilov Tofiq Əsgərzadəni məğlub edərək qalib adını qazanıb. Orxan Ağaverdiyev isə bu uğura 60 kiloqramda imza atıb. Daha gərgin və maraqlı döyüşü azarkeşlər 72 kiloqramda izləyiblər. Belə ki, boks üzrə muxtar respublika çempionları – Cəmaləddin Tağıyev və Elvin Kazımovun rinqdə döyüşü alqışlarla qarşılanıb. Bu görüşdə Elvin qalib gələrək öz çəkisində hamıdan güclü olduğunu sübut edib. Ən ağır çəkidə mübarizə aparan Anar Qasımov və Nail Hüseynovun döyüşü isə prinsipiallığı ilə fərqlənib. Tamaşaçıların ayaq üstə alqışladıqları bu döyüşün qalibi Anar Qasımov olub. Digər çəkilərdə isə müvafiq olaraq, Aslan Allahverdiyev (65 kq), Seymur Süleymanov (68 kq), Fuad Nəsirov (75 kq) və Səyyad Məmmədov (85 kq) birinciliyin qalibi adını qazanıblar.

Birinciliyin sonunda qaliblərə diplom, kubok və qiymətli hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

*Maarifçi-şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi muxtar respublikamızda böyük hörmət və ehtiramla, yüksək təntənə ilə qeyd edilir.*

## Cəhalət dərdinin loğmanı, mərifət bağının bağbanı olan ustad

Ana dilimizdə milli məktəblərin, dərslik və dərs vəsaitlərinin hazırlanması işində əvəzsiz xidmətlər göstərən M.T.Sidqinin dəyərli irsi bu gün həvəslə öyrənilir, tədqiq edilir və geniş şəkildə təbliğ olunur. Həyatını xalqının savadlanmasına, vətən övladlarının tərəqqisinə, onların bəşəri mədəniyyətə qovuşmasına sərf edən bu insan hələ sağ ikən ürəklərdə özünə bir heykəl ucaltmışdır.

Bütün həyatı boyu məktəb, maarif, mədəniyyət, tərəqqi carçısı olmuş Sidqi təlim və tərbiyəyə, ana dilimizə, ədəbi irsimizə çox dəyərli incilər, əvəzsiz töhfələr bəxş etmişdir.

Bu incilər, əsasən, 1892-ci ildə Ordubadda, 1894-cü ildə Naxçıvanda açdığı yenitipli “Əxtər” və “Tərbiyə” adlı məktəblərdə yaradılmışdır. Həyat və fəaliyyətini sırf məktəblə, maariflə bağlayan bu maarifçi-ziyalıdan bizə qalan irs bizim üçün çox doğma, çox gərəkli və çox əzizdir.

Məhəmməd Tağı Sidqi “Əxlaq nümunəsi”, “Qızlara hədiyyə”, “Nəsihətnamə” kimi pedaqoji, “Elmin şərafəti”, “Məmmədəliyə nəsihət”, “Şikayətnamə”, “Məktəbdə”, “Dərsə diqqət”, “Yüz il yatandan sonra” və sair kimi maarifçi bədii əsərlərin, qəzəllərin, hekayələrin, “Puşkin”, “Heykəli-insana bir nəzər”, “Müxtəsər coğrafiya risaləsi” kimi bir çox elmi əsərlərin, məqalələrin və öyüdnamələrin müəllifidir.

Cəhalət dərdinin dərmanını elmdə, maarifdə, məktəbdə görən böyük Sidqi “Məktəb” adlı kiçikhəcmli əsərində öz fikrini bircə cümlə ilə belə ifadə edirdi: “Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır, həmişə cahilləri alim və divanələri aqil eylər”.

Dərslik və hekayələrində müəllimin şəxsi nümunəsini əsas tərbiyə vasitəsi kimi götürən Sidqi ömrünün sonuna qədər öz ideallarına sadiq qalmış, şəxsi nümunəsi ilə ideal müəllim obrazı yaratmışdır. Şagirdləri əmək tərbiyəsi ilə zəhmətsevərliyə, fiziki tərbiyə ilə sağlam olmağa səsləmiş, onlarda ağılın, əxlaqi, estetik, beynəlmiləl tərbiyənin formalaşması üçün müxtəlif metod, yol, üsul və vasitələrdən istifadə etmişdir.

Görkəmli pedaqoq gələcək nəsli doğru yola çəkmək, onları sağlam, bəşəriyyətə gərəkli övlad, Vətənə layiqli vətəndaş kimi tərbiyə etmək üçün bütün həyatını sərf etmişdir. Məktəb, müəllim və şagirdlərlə bağlı ədəb-ərkan, nizam-intizam qaydalarını özü hazırlamış, onun həyata keçirilməsini daim nəzərdə saxlamışdır. O, yeri gəldikcə müxtəlif cəza növlərindən istifadə etməyi də nəzərdə tutmuşdur ki, bu həm elmi, həm də pedaqoji baxımdan yüksək dəyərləndirilməlidir.

M.T.Sidqi, əsasən, dörd cəza növünü tətbiq etməyi məsləhət görür və özü də bunlardan müntəzəm istifadə edirdi.

*1. Tovqif (yubandırma, maneolma, təxirəsalma) üçün qabaqlayıcı tənbeh*

*2. Mövcibi-tənbeh (səbəb, dəlil, sübut tənbehi)*

*3.Tovqifi-tamam (mane olmağın, təxirə salmağın sonu)*

*4.Tənbehi-səxt (sərt, ciddi tənbeh).*

O, bu cəza növləri vasitəsilə qabaqlayıcı tədbirlər görmüş, gələcək nəsli elm və ədəbə səsləmiş, uşaqların kamil şəxsiyyət kimi böyümələrinə səy göstərmişdir.

Ustad pedaqoq “Elm və ədəb insana ata və ana əvəzidir. Ata-anası ölənlərə “yetim” deyilən kimi, elm və ədəbi olmayanlara da “yetim” demək caizdir”, – deyirdi.

Sidqi bütün əsərlərində insanları elmə, təhsilə, mərifətə və mədəniyyətə səsləyirdi. Məktəblilər üçün yazılmış kiçik hekayə və öyüdnamələrin təkcə adları deyilən fikirləri açıq-aydın təsdiqləyir.

“Məktəb”, “Elm”, “Ədəb”, “İki tərbiyə üsulu”, “Məktəbə davam edən uşaq”, “Ata və ana”, “Gözütox uşağın hekayəti”, “Övlad məhəbbəti”, “Analar bəzəyi” və sair Sidqinin gözəl yazıçı, tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görkəmli məktəbşünas olmasından xəbər verir.

“Analar bəzəyi” adlı kiçik bir imla mətni çox irihəcmli əsərlər qədər mənəvi, əxlaqi dəyərləri özündə əks etdirir. Müəllif yazır: “Övlada əvvəlinci təlim və tərbiyə verən anadır. Anaların rəftarı və girdarı, hal və hərəkəti balaların qəlbinin aynasına əks salır. Elmli və mərifətli analar süd verən vaxtdan başlayıb övladının təlim və tərbiyəsinə məşğul olurlar. Onlar balasının təlim və tərbiyəsini özünün bəzənib-düzənməyindən vacib bilirlər.

Bir gün zər və divərə həris olan bir arvad faxir libaslarını geyib və cəvahirat ilə bəzəndiyi halda bala tərbiyəsinə aşiq olan bir xanımın evinə gəldi. Qiymətli libasını və bahalı daş-qaşını iftixarla göstərəndən sonra mürəbbiyə xanımı adi bir sadə libasda görüb, “sənin də zər-zivərini görmək istəyirəm”, – dedi.

Xanım cavab verdi ki:

– Əgər bir az səbir eləsən, onları sənə nişan verərəm.

Bir azdan sonra balaları məktəbdən gəlib evə daxil olanda onların əlindən tutub o arvadın yanına gətirdi və dedi:

– Mənim də zər-zivərim, mülk və malım, cah və cəlalım bu iki gözlərimin nuru və ciyərparələrimdir. Mənim üçün əziz balalarıma təlim və tərbiyə vermək cəvahiratdan qiymətlidir”.

Məktəblərimizdə, ali təhsil müəssisələrində Məhəmməd Tağı Sidqi irsinin öyrənilməsinə, dərslik və dərs vəsaitlərinin tərtibində onun elm və mərifətlə dolu əsərlərindən istifadəyə daim diqqət yetirilməli, onun həyat və fəaliyyəti bütün yönləri ilə tədqiq olunmalıdır.

Fikrimizi M.T.Sidqinin hikmətli cümlələri ilə bitirmək istərdik: “Təzə əkilən tənəklərə və ağaclara su vermək nə qədər lazım olsa, uşaqlara da təlim və tərbiyə kiçiklikdə bir o qədər lazımdır”. “Ağıllı ata, ana övladını elmə və tərbiyəyə rağib edəndir. Balasını bikar və əziz saxlayan övladının düşmənidir”. “İnsan vücudunun səmərəsi və faydası elm ilə hasil olur. Elmsiz və mərifətsiz insan meyvəsiz ağaca bənzər”.

**Elbəyi MAQSUDOV**
***pedaqogika elmləri doktoru***


**İtmişdir**

Babək rayonunun Şəkərabad kəndində yaşamış Məhərrəmov Eldar Mamoş oğlunun adına olan JN-120A və JN-120B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

* * *

Gizir Məmmədov Nahid Əkrəm oğluna məxsus 0013423 nömrəli vəsiqə itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 963